*Linqvistika problemləri. Cild 1, №4, 2020, s.209-219*

# V sinif şagirdlərində dil qaydalarının inkişafı dinamikası
*(Dərslik üzrə)*

**Axundova Şəbnəm Şamil qızı**
**fəlsəfə doktoru hazırlığı üzrə doktorant**

**Xülasə**

Bu gün təhsil dünyanın hər yerində cəmiyyətin mühüm atributlarından biri kimi dəyərləndirilir. Hər kəs bir insan olaraq gələcəyin bütün uğurlarında təhsilin əvəzsiz yerini aydın dərk edir. Onun tələblərinə uyğun olaraq inkişaf istiqamətlərini müəyyənləşdirir. Bu istiqamətlərin əhəmiyyətini dərindən dərk edərək V sinif şagirdlərinin Azərbaycan dili üzrə nitq bacarıqlarının inkişafı və bu inkişafda dil qaydalarının rolunu bu məqalə vasitəsilə çatdırmağa çalışmışıq. Heç kimə gizli deyil ki, xüsusilə V sinifdən başlayaraq şagirdlərin şəxsiyyət kimi formalaşmasının başlanğıcı qoyulur. Cəmiyyətdə yaşamaq, fəaliyyət göstərmək üçün həyati dəyərlərin əsası məhz bu təhsil pilləsində qoyulur. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə əsaslanmaqla həyata keçirilən təhsil islahatları nəticəsində yenilənən dərsliklərimiz və bu gün bizim əsas tədqiqat obyektimiz olan V sinif Azərbaycan dili dərsliyi şagirdlərdən müstəqil tədqiqatçılıq və yaradıcılıq tələb edir. Bütün bunlar isə şagirdlərin məntiqi təfəkkürünün inkişafına yol açır. Dərsliyi nəzərdən keçirdikdə onun da şahidi olduq ki, dərslik keçmiş, metodik irsə, onu yaradanlara rəğbət hissini qorumaqla bərabər, fəal təlim texnologiyalarına əsaslanan müasir təlim rolunu oynayır.

***Açar sözlər:*** *nitq, şagird nitqi, dil qaydaları, V sinif Azərbaycan dili dərsliyi, lüğət ehtiyatı.*

**Summary**

Today, education is valued all over the world as one of the most important attributes of society. Everyone, as a human being, clearly understands the invaluable role of education in all future successes. It determines the directions of development in accordance with its requirements. Deeply aware of the importance of these areas, we have tried to convey through this article the development of Vgrade students' speaking skills in the Azerbaijani language and the role of language rules in this development. It is no secret that the development of students as individuals begins, especially from the V grade. It is at this stage of education that the foundation of vital values for living and functioning in society is laid. Our textbooks, updated as a result of educational reforms based on the experience of developed countries, and the V grade Azerbaijani language textbook, which is our main research object today, require

students to do independent research and creativity. All this leads to the development of students' logical thinking. While reviewing the textbook, we also saw that the textbook is a past, methodical heritage, which, while maintaining a sense of sympathy for its creators, plays the role of modern teaching based on active learning technologies.

***Keywords:*** *speech, student speech, language rules, V grade Azerbaijani language textbook, dictionary...*

## Резюме

Сегодня во всем мире образование ценится как один из важнейших атрибутов общества. Каждый как человек ясно понимает неоценимую роль образования во всех будущих успехах. Определяет направления развития в соответствии со своими требованиями. Глубоко осознавая важность этих областей, мы попытались передать в этой статье развитие разговорных навыков учащихся V классов на азербайджанском языке и роль языковых правил в этом развитии. Не секрет, что особенно с V класса ученики начинают развиваться как личности. Именно на этом этапе образования закладывается фундамент жизненно важных ценностей для жизни и функционирования в обществе. Наши учебники, обновленные в результате образовательных реформ, основанные на опыте развитых стран, и учебник азербайджанского языка для V классов, который сегодня является нашим основным объектом исследования, требуют от учащихся самостоятельных исследований и творчества. Все это приводит к развитию логического мышления студентов. Изучая учебник, мы также стали свидетелями того, что учебник является прошлым, методологическим наследием, сохраняя чувство симпатии к своим создателям, но играет роль современного обучения, основанного на активных технологиях обучения.

***Ключевые слова:*** *речь, речь ученика, языковые правила, учебник азербайджанского языка для V класса, словарь*

### Aktuallıq:

Bütün dövrlərdə və həmçinin bu gün də aktual qalmaqda olan ən mühüm məsələlərdən başlıcası şagirdlərin bütün fənlər xüsusilə Azərbaycan dili üzrə biliklərini yüksəltməsidir. Məqalənin aktuallığı isə ondan ibarətdir ki, bu günün şagirdi gələcəyin ziyalısı kimi yetişdirilir və nitq inkişafı üzrə bacarıqlarının inkişafına diqqət yetirilir. Bu gün dərsliklərimizdə ən çox diqqət isə nitqin dolğunluğuna, dəqiq və aydınlığına, konkret və yığcamlığına yönəldilir.

**Annotasiya:** Təqdim edilmiş məqalədə əsasən orta məktəb şagirdlərinə dil qaydalarının öyrədilməsi, nəzəri materialların mənimsədilməsi məsələlərindən bəhs edilmişdir. Çünki müasir dövrdə savadlı kadrlara, ədəbi dil qaydalarına sahib olan, fikir və düşüncələrini dil qayadalarına uyğun gerçəkləşdirməyi bacaran, fonetik səlisliyi, leksik semantik zənginliyi, onomastik vahidlərin doğru yazılışını, şifahi və yazılı nitqin özəlliklərini, qrammatik şəffalığı, nisbi səlisliyi bilən və nitqində tətbiq edən kadrların yetişdirilməsi aktual məsələlərdən biridir.

**Metodlar:**

"Beyin həmləsi" metodları, (BİBÖ, klaster, suallar, anlayışların çıxarılması, söz assosasiyaları, sinektika, hökm və mediasiya, Qərarlar ağacı), "Tədqiqat və təqdimat" (Problemin həlli, kublaşdırma, keys metod, Venn diaqramı, layihələr, sorğu vərəqələri, İdayalar xalısı, refleksiya, esse, təqdimat) və s. kimi tədqiqat metodlarından V sinif dərsliklərinin tədrisi zamanı istifadə edilir.

**Giriş:**

Azərbaycan dili milli diriliyimiz, milli varlığımızdır. Dilimizə məhəbbət, sevgi, ehtiram yaratmaq üçün Azərbaycan dili və ədəbiyyat müəllimi ilk növbədə özü dilimizin zənginliklərinin, böyüklüyünün vurğunu olmalıdır və V sinif Azərbaycan dili dərsliyinin tədrisindən başlayaraq görkəmli şəxsiyyətllərin fikirlərindən sitatlar gətirməyi, dilimizin zənginliyini əks etdirən konkret faktlara istinad etməklə böyük sənətkarlarımızın dilimiz haqqında olan seirlərini görkəmli aktyorlarımızın ifasında səsləndirməyi, dil qayda qanunlarının şagirdlər üçün öyrənilməsinin ağır yük olduğunu yox, ən ümdə vəzifə olmasını aşılamalıdır.

Müəllim həmin vacib işin bünövrəsinin orta məktəbdə qoyulduğunu, orta məktəbdə bütün fənlərin, xüsusən Azərbaycan dili fənninin şagirdləri nitq və təfəkkürünün inkşaf etdiyini nəzərə almalıdır. Müasir dövrdə savadlı olan dedikdə yalnız öz orfoqrafiyasını bilən nəzərdə tutulmadığını, eyni zamanda ədəbi dil qaydalarına əməl etməsi, fikir və düşüncələrini dil qayadalarına uyğun gerçəkləşdirməyi, fonetik səlisliyi leksik semantik zənginliyi, onomastik vahidlərin doğru yazılışını, şifahi və yazılı nitqin özəlliklərini, qrammatik şəffalığı, nisbi səlisliyi diqqətə yönəltməyi bacarmalıdır.

Azərbaycan dilindən sistematik kursun tədrisində nitq inkişafı üzrə işlər təlimin bütün mərhələlərində xüsusi yer tutur və Azərbaycan dili təliminin ana xəttini təşkil edir. Biz bu məqalə ilə daha qabarıq şəkildə qeyd edirik ki, şagirdlərin düzgün, işlək nitq bacarıqlarının formalaşdırılması dil təliminin başlıca didaktik vəzifələrindəndir. Əslində V sinif Azərbaycan dili dərsliklərinin tədrisindən başlayaraq, Azərbaycan dili və ədəbiyyat müəlliminin fəaliyyəti onun şagirdlərinin nitq və yazı mədəniyyətinin səviyyəsinə yüksəldilməsinə yönəldilir və bu cür qiymətləndirmə ən ədalətli yanaşmadır.

Nitq inkişafı və rabitəli nitqin nəzəri məsələləri həmişə metodika üzrə tədqiqat aparan tədqiqatçıların diqqət mərkəzində olmuşdur. İndi isə V sinif Azərbaycan dili dərliklərində tədris edilən dil qaydaları və bu qaydaları mənimsədikdən sonra şagirdlərdə yarana biləcək müxtəlif spektorlu inkişafı təhlil edəcəyik.

Kurikulum əsasında yazılmış V sinif Azərbaycan dili dərsliklərinə nəzər saldıqda görürük ki, 1-ci bölmədən başlayaraq "Söz ehtiyatı" başlığı adı altında müxtəlif sözlərin mənasının izahı verilir. Bu isə onu deməyə əsas verir ki, nitq vərdişlərinə yiyələnməyin zəruri şərtlərindən biri ***lüğət ehtiyatının olmasıdır.*** (5, 23)

Şagird dilinin, nitqinin gözəlliyi lüğət ehtiyatının olmasında bu zənginlikdə , bu leksik semantik bazadadır. Biz məqalə vasitəsilə "Söz ehtiyatı" başlığı adı altında olan sözlərin bir qismininin siyahısını müəyyən edərək, V sinif Azərbaycan dili dərsliklərində olan mövcud lüğət fondunun yaradılmasına səy göstərmişik.

| | |
|---|---|
| axur | heyvanlara yem tökmək üçün düzəldilən qab, qutu |
| akrobatika | gimnastika və sirk sənətinin bir növü |
| alaçıq | çubuqdan qurulan üstü keçə ilə örtülən köçəri mənzil, çadır |
| amputasiya | bədənin ətraf orqanlarının cərrahi yolla kəsilməsi |
| arfa | böyük üçbucaq çərçivəsində simli musiqi aləti |
| Arqument | müzakirə zamanı natiqin istinad etdiyi dəlil və sübutlar |
| Artillerist | artelleriyada qulluq edən hərbçi |
| astana | kandar qapının ağzı |
| bəlağətli | təmtəraqlı, gözəl, ifadəli nitq |
| bilyard | xüsusi miz üstündə şarlarla oynanılan stolüstü oyun |
| bosman | gəmi kapitanın  təsərrüfat işləri üzrə müavini |

| | |
|---|---|
| bürc | bədim şəhər divarının üzərində müşahidə və müdafiə qüvvəsi |
| cüssə | övdə, bədən, boy-buxun |
| iftira | böhtan, şər |
| ilah | bəzi qədim dinlərdə kişi cinsli tanrı |
| irs | sənət adamının ölümündən sonra qoyub getdiyi miras, dəyərlər |
| istehkam | müdafiə məqsədilə düzəldilən tikili |
| istila | bir ölkəni zorla alma, ələ keçirmə, tutma |
| izdiham | böyük insan kütləsi, qələbəlik |
| kəcavə | adlı-sanlı adamların səyahəti üçün minik heyvanlarının üzərində qurulan yer |
| keçə | yunu  döyüb basmaqla hazırlanan sıx, qalın material |
| kredo | məslək, əqidə amal |
| kurort | müalicə və istirahət üçün əlverişli yer |
| qahmar | kömək, tərəfdarlıq, havadarlıq |
| qəyyum | öz işlərini idarə edə bilməyən şəxslərə, onların mal mülkünə nəzarət üçün təhkim olunmuş adam |
| qibtə | aşqasının üstünlüyünü, uğurunu görüb bunları özünə arzulama, bunların həsrətini çəkmə |
| qissə | rəvayət edilən doğru və uydurma hekayə, əhvalat |
| labirint | dolanbac və dolaşıq yolları olan tikili |
| leşkər | qoşun, ordu |

| | |
|---|---|
| loğman | həkim, təbib |
| müdhiş | dəhşətli,dəhşət doğuran, vahiməli, qorxunc |
| müntəzir | bir işi canla-başla yerinə yetirməyə hazır olan |
| müşkül | çətin başa gələn, çətin həll edilən |
| muzdur | mülkədar təsərrüfatında muzdla işləyən fəhlə |
| mülahizə | yaxşı düşünülmüş fikir, rəy, nöqteyi nəzər |
| müstəsna | misilsiz, görünməmiş, qeyri-adi fövqalədə |
| mütəfəkkir | bilikli, savadlı, ziyalı, dərin fəlsəfi fikir sahibi olan adam |
| Natürmort | təsviri sənətdə cansız əşyaların qrup şəklində rəsmi |
| yelkən | gəmini hərəkətə gətirmək üçün dorağacına bənd edilən parça |
| peyzaj | təbiət təsviri |
| poqon | zabit geyiminin çiyin hissəsinə keçirilən və zabitin rütbəsini üzərindəki ulduzlarla göstərən forma |
| prototip | obraz yaratmaq üçün müəllifin istifadə etdiyi həqiqi şəxs |
| riqqət | ürək yumşaqlığı, ürək incəliyi, şəfqət |
| riza | razılıq izin, icazə, istək |
| ruzi | azuqə, qazanılan çörəkpulu |
| sal | iri, bütöv yasstı daş parçası |
| səngimək | yavaşımaq, azalmaq |

| | |
|---|---|
| səcdə etmək | qabağında baş əymək, təzim etmək |

Yuxarıda qeyd edilən və qarşısında müvafiq şəkildə izahı verilən sözlər V Azərbaycan dili dərsliklərində olan **“Söz ehtiyatı”**-nın müəyyən bir qismidir. Dialekt və ikidillik şəraitini nəzərə alsaq, şagirdlərin nitqinin formalaşdırıması, zəruri lüğət fondunun yaradılması uzun sürən bir prosesdir. Nitqi zənginləşdirmək lüğət ehtiyatının yaranmasından, istifadə baxımından isə lüğətin dəqiqləşmə, təmizlik və fəallığından asılıdır və nitq üzrə aparılan işin məzmununu da bunlar təşkil edir.

***Düzgün ədəbi tələffüz və ifadəli oxu vərdişlərinin inkişafı*** üzrə aparılan işlər nitq inkişafı üzrə işlərin ikinci istiqaməti və əsas şərtidir. Nitq inkişafımızın bu istiqaməti üzrə məsələləri araşdırarkən gəldiyimiz elmi qənaət budur ki, nitqdə vahid ədəbi tələffüz normalarına əməl edilməsi, vahid nitq rejiminin yaradılması şifahi nitqin anlaşılma və təsir dərəcəsini artırır.(4, 89)

Dərsliyə nəzər saldıqda görürür ki, düzgün ədəbi tələffüz və ifadəli oxu vərdişlərinin inkişafı üçün **“Yadda saxla”** başlığı adı altında saysız-hesabsız qaydalar təlqin edilir. Bu qaydalar vasitəsilə sadəcə səslərin tələffüz qaydaları deyil, hecalar daxilində səslərin tələffüzü zamanı yaranan oxşar və fərqli cəhətlər, səsdüşümü, səsartımı, dilimizdə olan bir qisim sözlərin tərkibində hərflərin yazıldığı kimi deyil, başqa şəkildə tələffüz edilməsi ə s. qaydalar ətraflı şəkildə öyrədilir.(2,126)

Biz dərsliyi ətraflı şəkildə təhlil zamanı belə qənaətə gəldik ki, dilimizə məxsus sözlər minimumunu bilmək, həmin dilin danışıq normalarına, tələffüz qaydalarına uyğun demək hələ nitq üçün kifayət deyildir. Buradan yeni şərt, yeni bir istiqamət meydana çıxır: sözlər dilin qrammatik qaydalarına uyğun şəkildə birləşdirilib müəyyən konstruksiyalı cümlələr çevrilməsə fikir aydın, düzgün ifadə oluna bilməz. Deməli, ***cümlə qurmaq vərdişlərinin inkişafı üzrə işlər*** nitq inkişafının əsas istiqamətlərindən biridir. Məktəblərimizdə bu sahədə işlərin hansı səviyyədə aparılması ilə bağlı müşahidələr apardıq və gəldiyimiz qənaət ondan ibarət oldu ki, istər şagird, istərsə də müəllim heyətinin bu sahədə peşəkarlığı yüksək səviyyədədir. Bunun başlıca səbəbi isə müxtəlif məzmunlu, ibrətamiz xarakterli mətnlərin dərsliklərdə yer almasıdır. Həmin mətnlərin və onlara uyğun dil qaydalarının qısa təsnifatına verəcəyik.(6, 51)

| |
|---|
| **Mükafat** |
| **Saitlərin növləri** |
| **Əsl dost** |

| |
|---|
| **Samitlərin növləri** |
| **İradənin gücü** |
| **Ahəng qanunu** |
| **Bizim riyaziyyat müəllimimiz** |
| **Saitlərin uzun tələffüzü** |
| **Ala-bəzək torba** |
| **“O” saitinin “a” kimi tələffüzü** |
| **Dünyanın ən sürətli adamı** |
| **Söz sonunda cingiltili samitlərin tələffüzü** |
| **Təcili qan lazımdır** |
| **Sözlərin sonunda k-y əvəzlənməsi** |
| **Xeyirxah Əli** |
| **“Q” samitinin yazılışı** |
| **Orxan və təpəl** |
| **Qoşasamitlə bitən təkhecalı sözlər** |
| **Hamının bildiyi dil** |
| **Qoşasamitli sözlərin tələffüzü** |
| **Lüğətlər** |

| |
|---|
| **Sözün leksik və qrammatik mənası** |
| **Qanadlı misralar** |
| **Sözün məcazi mənası necə yaranır** |
| **Rəvayətli ifadlər** |
| **Frazeoloji birləşmələr** |
| **Lakonizm nədir** |
| **Omonimlər** |
| **Dəyirmi masa cəngavərləri** |
| **Sinonimlər** |
| **Axillesin dabanı** |
| **Etimologiya nədir** |
| **Sərhədsiz internet** |
| **Terminlər** |
| **Birgünlük xəlifə** |
| **Arxaizmlər** |
| **Bilirdim ki, gələcəksən** |
| **Kök və şəkilçi** |
| **Fırtına da yatan adam** |

| Şəkilçilərin variantları |
|---|
| Yoxsulluq nədir |
| Söz yaradıcılığı |
| Xoşbəxlik |
| Eyniköklü sözlər |
| Balaca qara balıq |
| Mürəkkəb sözlər |

Yuxarıda qeyd edilənlər, V sinif Azərbaycan dili dərsliyində əks olunmuş mətnlərin az bir hissəsidir. Bu mətnlər özündə böyük məna yükünü daşıyan, qrammatik qaydalara müvafiq cümlələr külliyyətini özündə ehtiva edən, həmsöhbətə fikri dəqiq çatdırmaqda önəmli rol oynayan ən önəmli istiqamətlərdən biridir. Biz məqalənin daha oxunaqlı, daha yaradıcı olmağını üstün tutaraq bu mətnləri bütövlükdə oxuyaraq ətraflı təhlil etdik. Əgər bir mətn adı ilə özündə bu qədər böyük bir məna daşıyırsa, söz toplumu tam konstruksiya daxilində daha öyrədici olacaqdır.

Lüğət ehtiyatına sahib olmaq, ədəbi tələffüz normalarını gözləmək, qrammatik qaydalara müvafiq cümlələr qura bilmək hələ kamil nitqə malik olmaq demək deyil. Şagird deyəcəyi fikri hansı çalarda, hansı üslubda çatdırmağı bacarmalıdır. Deməli, ***şagird nitqinin üslubca zənginləşdirilməsi üzrə işlər üzrə işlər*** də nitq inkişafı üzrə işlərin əsas istiqamətlərindən biri kimi diqqət mərkəzində dayanmalıdır. Müşahidələrimiz onu deməyə əsas verir ki, məktəblərimizdə bu istiqamətdə aparılan işlərdə müəyyən çatışmazlıqlar vardır. Üslubiyyət təliminin inkişafına ehtiyac vardır. (3,56)

Rabitəli nitq Azərbaycan dili kursunda xüsusi təlim predmetinə, bacarıqlar sisteminə sahib bir bölmədir. V sinif Azərbaycan dili proqramında rabitəli nitqə aid anlayışlar konkretləşmiş, hər tədris ili üçün müəyyən təlim prinsipləri nəzərdə tutulmuşdur. ***Rabitəli nitqin inkişafı üzrə aparılan işlər*** nitq inkişafı üzrə əvvəl sadaladığımız istiqamətlərdə aparılan işlərin yekunu və nəticəsidir. Azərbaycan dili müəllinin nitq inkişafı üzrə apardığı işlərin nəticəsi şagirdlərin rabitəli nitq vərdişlərinə yiyələnməsi ilə ekvivalentdir. (1,96)

Azərbaycan dili dərsliyində V sinif şagirdlərinin şifahi və yazılı nitqlərini inkişaf etdirmək üçün geniş imkanlar vardır. Şagirləri atalar sözü, məsəllər, tapmacalar, aforizmlər, gözəl bədii məzmunlu, dolğun yazılı nitq nümunələri üzərində düşünməyə yönəltmək, oxuduqları materiallardan dəyərli nəticələr əldə etməyi öyrətmək Azərbaycan dili və ədəbiyyat müəllimlərində zəngin biliyi sağlam dünya görüşü daşıyıcısı ola bilmək bacarığını, keyfiyyətini tələb edir. Belə keyfiyətlərin daşıyıcısı olan müəllimlər öz peşlərinin və ixtisaslarının pedoqoji ustası statusunu qazananlardır. Onlar Azərbaycan dili tədrisi metodikasının obyektinin həmin dilin təlim prosesinin mahiyyətini açmağı, həmin fənnin təlimi ilə bağlı obyektiv qanunları aşkara çıxartmağı, bu qanunlardan əməli fəaliyyətdə istifadənin imkanlarını şərh edib əsaslandırmağı yetərincə bacarırlar.

Son zamanlar Azərbaycan dili təliminə aid yazılmış əsər və məqalələrdə rabitəli nitq inkişafı məsələlərinə xüsusi diqqət yetirilir, onun orta məktəb tədrisindəki mövqeyi geniş qabardılır. Biz də öz növbəmizdə bu məqalə vasitəsilə V sinif şagirdlərinin Azərbaycan dili nitq bacarıqlarının inkişaf etdirilməsinin ətraflı təhlilini apardıq. Dərslikdə tədris edilən mövzu və yarımmövzular aid misal, sxem, cədvəl və s. mövzusonu istiqamətlər bilərəkdən cəmləşdirilmişdir. Məqalənin bu cür seçilmiş formatda hazırlanması müraciət edilən əyani vəsait kimi səmərəli olma ehtimalını yüksəldir.

## Ədəbiyyat


1. Abdullayev A.A. Nitq mədəniyyəti və natiqlik sənəti, Bakı, 1973.
2. Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dili tədrisi metodikası. ≪Maarif≫, 1978.
3. Abdullayeva N.Ə., Məmmədov Z.T. Nitq mədəniyyəti məsələləri, Bakı,1998
4. Abdullayev N. Məmmədov Z. Nitq mədəniyyətinin əsasları, Dərslik Bakı, 2005
5. Babayev A. Azərbaycan dil və nitq mədəniyyəti. Bakı, 2009.
6. Qurbanov V. Nitq mədəniyyəti və üslubiyyat, Bakı, 2011.
7. İstifadədə olan V sinif Azərbaycan dili dərsliyi İsmayılov R. Cəfərova Dilrüba. Xudiyeva Gülarə. Qasımova X. Azərbaycan Dili, Bakı, 2020
8. Ümumtəhsil məktəblərinin V siniflər üçün Azərbaycan dili proqramları, Bakı, 1992, Bakı, 2002